# “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin ~~və Azərbaycan Respublikasında30 gündən artıq yaşamaq istəyən əcnəbilərin~~ xüsusi sənədləri haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqındai[1]

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin ~~və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin~~ xüsusi sənədləri haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi iləəlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə**qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan 16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsinin, Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsinin və Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsinin, Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbiyə verilən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqənin nümunələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təsdiq olunmaq üçün təqdim etsin;

“Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq müvafiq xüsusi sənədlərin blanklarının hazırlanması və istehsalı ilə bağlı təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan 16 yaşına çatanadək vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsi və Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbiyə verilən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə verilməsi iləəlaqədar dövlət rüsumunun

alınmasıhallarına və müvafiq olaraq məbləğlərinə dair təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:*ii[2]

*2.1. "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin 1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*2.2. həmin Əsasnamənin 13-cü maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*2.3. həmin Əsasnamənin 7-ci, 8-ci, 10-cu maddələrində, 11-ci maddəsinin birinci və ikinci hissələrində, 12-ci maddəsində, 13-cü maddəsində (birinci halda), 14-cü maddəsinin birinci və ikinci hissələrində, 18-ci maddəsinin birinci, ikinci və dördüncü hissələrində, 19-cu maddəsinin birinci hissəsində, 20-ci, 21-ci, 24-cü maddələrində, 25-ci maddəsinin birinci hissəsində, 26-cı maddəsində, 27-ci maddəsinin birinci hissəsində, 28-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;*

*2.4. həmin Əsasnamənin 17-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, habelə rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhərdə rayon icra hakimiyyətlərinin nümayəndəlikləri həyata keçirirlər;*

*2.5. həmin Əsasnamənin 38-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.*

Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV

Bakışəhəri, 13 mart 1998-ci il

№ 684

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 24 avqust 2002-ci il tarixli 758 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 478**)
2. 12 dekabr 2006-cı il tarixli 487 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1034**)
3. 5 avqust 2008-ci il tarixli **805** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 713)**
4. 20 iyul 2009-cu il tarixli 129 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 22 iyul 2009-cu il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 7, maddə 532)**
5. 28 avqust 2013-cü il tarixli **970** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 29 avqust 2013-cü il, № 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 08, maddə 913)**
6. 11 mart 2015-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı**("Azərbaycan" qəzeti, 14 mart 2015-ci il, № 58)**


## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

i[1] 20 iyul 2009-cu il tarixli 129 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 22 iyul 2009-cu il, № 163, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 7, maddə 532)** ilə fərmanın adında, preambulasında, 1-ci bəndinin ikinci, beşinci və yeddinci abzaslarında, 2-ci bəndinin ikinci-altıncı abzaslarında «**şəxslərin və**» sözlərindən sonra «**Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən**» sözləri əlavə edilmişdir.

28 avqust 2013-cü il tarixli **970** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 29 avqust 2013-cü il, № 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 08, maddə 913)** ilə Fərmanın adından, preambulasından, 2-ci hissəsinin ikinci-altıncı abzaslarından "**və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin**" sözləri çıxarılmışdır.

**ii[2]**11 mart 2015-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı**("Azərbaycan" qəzeti, 14 mart 2015-ci il, № 58)** ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki:~~

"Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnamənin 1-ci bəndində, 2-ci bəndinin yeddinci abzasında və 31-ci bəndində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;ii[2]

"Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnamənin 7-ci və 8-ci bəndlərində, 10-cu bəndinin birinci abzasında, 11-ci bəndinin birinci və ikinci abzaslarında, 12-ci bəndində, 13-cü bəndində "növündən asılı olmayaraq" sözlərindən əvvəl, 14-cü bəndinin birinci və ikinci abzaslarında, 18-ci bəndinin birinci, ikinci və dördüncü abzaslarında, 19-cu bəndinin birinci abzasında, 20-ci, 21-ci, 24-cü bəndlərində, 25-ci bəndinin birinci abzasında, 26-cı bəndində, 27-ci bəndinin birinci abzasında, 28-ci bəndinin beşinci abzasında, 33-cü bəndində "yaşadığı yer üzrə Azərbaycan Respublikasının" sözlərindən sonra, 35-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

"Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnamənin 13-cü bəndində "vasitə ilə" sözlərindən sonra, 33-cü bəndində "əsasında və" sözlərindən sonra nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

"Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnamənin 17-ci bəndində nəzərdə tutulmuş "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri öz səlahiyyətləri daxilində həyata keçirir;ii[2]

"Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnamənin 22-ci bəndinin birinci və ikinci abzaslarında nəzərdə tutulmuş "məhkəmə qərarlarını icra edən orqanlar"ın səlahiyyətlərini Azərbaycan RespublikasıƏdliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər.ii[2]

həmin Əsasnamənin 34-cü bəndinin "b" və "c" yarımbəndlərində, 38-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.ii[2]